

## Adilə HACILI

*Filologiya fakültəsinin ikinci kurs tələbəsi*

* * *

Eyni şerin misralarıyıq,
Qafiyə deyiliksə əgər,
Ayrı dünyanın adamlarıyıq...

Eyni göyüzünün buludlarıyıq,
Yağışımız bir yağmırsa əgər,
Ayrı dünyanın adamlarıyıq...

Eyni adamın gözləriyik,
Hər şeyi görürük,
bir-birimizi görmürüksə əgər,
Ayrı dünyanın adamlarıyıq...
Əgər ayrı dünyalardanıqsa,
Gəl bir planetdə yaşayaq,
havası olmasa da olar,
suyu olmasa da olar,
lap cazibə qüvvəsi də olmasın.
Və mən deyirəm ki, mənim əziz həmdünyam,
Ən əsası sənsizlik olmasın...
Onsuz da iki nəfərik,
sevməliyik bir-birimizi,
yaşatmalıyıq bir-birimizi,
ölməliyik bir-birimizə
Və dönməliyik planetimizdə bizə...

* * *

Deyir,
Baxışların bahardır.
Amma elə bahar ki, bir az paxıl, bir az lovğa...
Sanki açılan güllərinlə qürrələnirsən.
Başını elə qaldırırsan ki göyə
yaratdığın alçaq dağları da görmürsən...

Deyir,
Baxışların qışdır, qış.
Amma elə qış ki, bir az sakit,
bir az mərhəmətli...
Sanki yandırmısan öz soyuğunda
dünyanın ən böyük tonqalını...

Baxışların buzdur, buz,
İstəmirsən olum Günəşin...
Eh...
Niyə qorxursan?!
Varlığın ərisə, hopacaq ruhuma,
diriləcək torpağımı.
Dayan, dayan,
Olaram mən sənin buzlu Günəşin.
özüm yanıb, özüm də əriyərəm
sənin canımdan dəyərli varlığın xətrinə...

Deyir,
Baxışların yaydır.
Amma elə bir yay ki, bir az həvəssiz,
bir az yorğun...
Sanki mənə baxıb istirahət edən onlar deyil.
Öldürür bu isti məni,
Bəyaz geyinirəm baxışından qorunmaq üçün,
Təvaf edirəm qəlbini,
"Mühacir!"- deyib qovursan məni...Deyir,

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 14 yanvar.- S. 28.**

Baxışların payızdır.
Amma elə bir payız ki, bir az dəli,
bir az deyingən.
Sanki yarpaqlarının rəngini mənəm dəyişən...

Ömrümün payızı,
Həqiqətim mənim,
Elə həmişə mən tərifləyim səni?!
Mənə yaz, yay, payız, qış yaşadan- il yaradan,
payız möcüzəm,
Sevdiyim fəslim,
Baxışların hər şeydir, hər şey...
-Hər şey bilirsən nədir?
-Sən!..
-Sən bilirsən nədir?
-Hər şey!..

* * *

Bir şəhər ol deyirəm,
Qaranlığında yüyürəndə büdrəməyim,
Günəşli səmanda süzəndə izin vermə heç kimə
daş atıb yaralasın məni...

Bir şəhər ol deyirəm,
Bütün havalarına dözərəm mən
Yağışında islanar,
Günəşində quruyar,
Soyuğunda donaram,
Fırtınanda tutaram əllərindən, buraxmaram səni.

Bir şəhər ol deyirəm,
O qədər yaxşı tanı ki, məni- sakinini,
"Hər addımımı, hər izimi, gözlərimi,
sükutumu əzbərlə!"- demirəm ki...
Hiss et, sadəcə hiss et
Mənim səndə yaşamaq istədiyimi...

Bir şəhər ol deyirəm,
"Yolların çox uzun oldu,
gəl, yarıda ayrılaq",- deməram.
"Gözlərimdən uzaqdasan,
qəlbimə məndən yaxınsan",- deyərəm...

Binaların içindən ən hündürünü seçib
atardım özümü qaranlığına,
qoymazdın düşməyə məni,
tutardı gözlərin məni.
Beləcə,
şəhərinin ən məşhur xəbəri olardım,
Kaş yığardım o zaman sənə ulduzları,
gecələrinə də işıq olardım...

Bir şəhər ol deyirəm,
İçində mən.
İçimdə sən.
Sən,
Ölkələrdən üz çevirib,
sığındığım şəhərim...

Bir şəhər ol deyirəm,
Günəşin olum deyirəm
isin mənimlə.
Dənizin olum deyirəm,
Sev mavini mənimlə.
Bir şəhər ol deyirəm,
Gecələrdə yuxulu gözlərin,
Gündüzündə gülüşün olum...

Daha nə deyim?!
Sən şəhər ol,
mən sənin adın.
Xəritədə göstərəndə səni,
çəksinlər mənim adımı...

Gözlərini yum və de:
-Nolar, bir şəhər olum onun üçün!..
Gözlərimə bax və de:
- Nolar, bir şəhər olum sənin üçün!..

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 14 yanvar.- S. 29.**